# Dünyaya siyasi liderlər vermiş məktəbin azərbaycanlı məzunu




**Qısa tanışlıq: Əlikram İsayev 1990-cı il mayın 7-də İmişli şəhərində dünyaya gəlib. 2007-ci ildə orta məktəbi, 2011-ci ildə Bakı Dövlət Universitetinin beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsini bitirərək beynəlxalq hüquq ixtisasına yiyələnib. Amerika Birləşmiş Ştatlarının Massaçusets ştatının Boston şəhərində fəaliyyət göstərən Harvard Universitetinin magistr pilləsinin məzunudur...**

**Taleyin qəribə işləri var, o, səni özü istədiyi yerə çəkib aparır, bir yerdə doğulur, xəyalına gətirmədiyin başqa bir məkanda yaşamalı olursan. Bəzən bu, istəklərimizlə üst-üstə düşmür, bəzən də...**

Xaricdə oxumaq, özü də dünyanın ən nüfuzlu ali təhsil ocaqlarından biri olan Harvard Universitetinin tələbəsi olmaq Əlikramın yeniyetməlik arzusu idi. Bakı Dövlət Universitetinin bakalavr pilləsini bitirdikdən sonra dünyanın bir çox ölkələrində magistr pilləsində oxumaq imkanı yaransa da, tələsmədi, gözlədi... Okeanın o tayı çox çəkirdi onu özünə. Bax, qəribəlik də elə burasındadır, Kürün qoynunda dünyaya gələsən, yeniyetməliyin Xəzərin qoynunda keçə və bir gün özünü okeanın qoynunda görəsən... Əlikram bu yerlərə arzusunu gerçəkləşdirmək, ilk növbədə özünü, sonra da doğma yurdunu tanıtmaq üçün gəlmişdi...

İctimai işlərə hələ tələbə ikən böyük maraq göstərir, idarəçilik sahəsində təcrübə toplamağa çalışırdı. 2009-cu ildə Stokholm şəhəri Ticarət Palatası Arbitraj İnstitutunun Bakıda keçirdiyi "Beynəlxalq Kommersiya arbitrajında işlərin aparılmasının praktiki üsulları" mövzusunda simpoziumda iştirak edərək sertifikat alan Əlikram, elə həmin il Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyinin informasiya şöbəsində Parlament rəhbərləri, Prezident Administrasiyası və müxtəlif nazirliklərlə seminarların təşkili üzrə təcrübə keçir və yay tətilində Harvard Universitetində ingilis dili kursunu bitirir. Sonralar Azərbaycan Respublikası Diasporlarla İş üzrə Dövlət Komitəsində, Bakı Dövlət Universitetinin göndərişi ilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında təcrübə keçdiyi dövrdə özünü yaxşı tərəfdən nümayiş etdirir, haqqında müsbət rəy formalaşdıra bilir.

Gənc tələbə ölkənin ictimai və sosial həyatında da yaxından iştirak edirdi. Belə ki, 2010-cu ilin may-iyun aylarında respublikanın Aran bölgələrində fasiləsiz yağan yağışlar, Kür və Arazın daşması nəticəsində baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması, evləri su altında qalmış kəndlərin əhalisinin təhlükəsiz yerlərə köçürülməsi, bəndlərin möhkəmləndirilməsi, yenilərinin tikilməsi işinə də köməklik göstərmişdi.

Əlikram öz üzərində çalışır, bilik və bacarığını artırırdı. 2009-cu ilin iyun-avqust aylarında Harvard yay məktəbində kurslar keçir, 2010-cu ilin yay tətilində o, Londonda fəaliyyət göstərən E.İ.London təhsil müəssisəsində TOEFL kursunu bitirir, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin "Vətəndaş cəmiyyətinin inkişafı və qeyri-hökumət təşkilatlarının dövlət tərəfindən maliyyələşməsi, qazanılmış təcrübə və yeni imkanları" mövzusunda Bakıda keçirdiyi beynəlxalq konfransın, həmin ilin dekabrında Avropa İttifaqı və Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratikləşdirmə üzrə Ali Komitənin iclasının təşkili işinə də ictimai əsaslarla qoşulub tədbirlərin uğurla həyata keçirilməsində fəal iştirak edir.

2013-cü ilin yanvarında Ombudsman Aparatında işə qəbul olunan gənc hüquqşünas burada "Azərbaycan Respublikasında insan hüquq və azadlıqları sahəsində Milli Fəaliyyət Proqramı"nın təhlili işinə cəlb edilir.

Həmin ilin sentyabrında onun çoxdankı arzusu gerçəkləşir. Əlikram İsayev "2007-2015-ci illərdə azərbaycanlı gənclərin xaricdə təhsili Dövlət Proqramı" əsasında Harvard Universiteti Con F. Kennedi adına Dövlət İdarəçilik məktəbində "İctimai siyasət" ixtisası üzrə magistr pilləsində oxumağa göndərilir. Təhsil illərinin ilk günlərindən dünyaya Barak Obama, Corc Buş, Pan Gi Mun kimi siyasətçilər vermiş bu təhsil ocağının professor, müəllim heyətinin diqqətini özünə çəkə bilir. Universitetin ictimai işlərində öz bacarıq və imkanlarını nümayiş etdirən Əlikramın dissertasiya mövzusu ASAN xidmətin Azərbaycan modelini müsbət mənada tanıtmaq, onun üstün cəhətlərini nümayiş etdirməyə həsr edilmişdi. Bununla bağlı deyir: "Dünyanın bir çox ölkələrində vətəndaşlara ictimai xidmətlər göstərən bənzər prototiplər, dövlət qurumları var. Ancaq ASAN xidmətin - Azərbaycan modeli tam və daha mükəmməldir. Mən araşdırmalar apararkən onun fərqli cəhətlərini diqqətə çatdırmağa çalışırdım. Məsələn, mobil xidmət avtobuslarının, yəni ASAN səyyar xidmətinin olması bölgələrdə də insanlara xidməti təmin edir ki, bu da xarici anoloji qurumlarda yoxdur. Burada göstərilən ictimai xidmətlərin sayının çoxluğu da onun üstünlüklərindən biridir: ASAN kommunal xidməti sistemi, ASAN viza, bank xidmətləri və s... Dissertasiya işi ilə bağlı vətəndaşlar arasında apardığımız sorğunun nəticələri onu göstərir ki, ASAN xidmət özünü doğruldur.

Ölkə başçısı cənab İlham Əliyevin belə bir xidmət növünü yaratmaqda ən böyük məqsədi korrupsiya, bürokratik maneələr və s. kimi mənfi hallara qarşı mübarizəni gücləndirməkdən ibarət olub. Cənab Prezidentin də qeyd etdiyi kimi, fəaliyyətə başladığı gündən indiyədək 10 milyonadək insan bu xidmətdən yararlanıb və bu müddətdə heç bir neqativ hal qeydə alınmayıb. Mən dissertasiya işimdə bütün bu müsbət cəhətləri diqqətə çatdırmağa çalışmışam. Məqsədim xarici mütəxəssislərin diqqətini bu məsələyə yönəltmək olub. Deyəsən, müəyyən mənada istəyimə çata bilmişəm".

Bəli, bu sözləri deməyə onun haqqı çatır. Belə ki, Harvard Universitetində onun dissertasiya mövzusu professor-müəllim heyəti tərəfindən maraqla qarşılandı, müsbət rəy verildi. Digər universitetlərin professorları da bu işlə maraqlandılar. İndi onlar ASAN xidmətin Azərbaycan modelini ictimai idarəetmə ixtisası üzrə magistr pilləsinin dərsliklərinə daxil etmək barədə düşünürlər.

Harvard Universitetinin məşhur professoru Cozef Elboverin bu barədə fikirləri doğrudan da maraqlı və əhəmiyyətlidir. O, deyir: "ASAN xidmət insanlara bir xidmət nümunəsidir. Bu, maraqlı bir təqdimat idi və Azərbaycan haqqında müsbət fikir formalaşdıra bildi. Asan xidmətin Azərbaycan təcrübəsi məni də çox təsirləndirdi. Korrupsiya ilə dünyanın ayrı-ayrı ölkələri müxtəlif şəkildə mübarizə aparır, amma heç birində bu qədər orijinal model ortaya qoyulmayıb. Korrupsiya o halda yaranır ki, orada bürokratiya və süründürməçilik var. İşini görmək üçün əlavə pullar ödəməlisən. Asan xidmət bu baryerlərin hamısını aradan qaldırıb və korrupsiyanı sıfır dərəcəsinə endirib. Bu, vətəndaşları məmnun edən ən uğurlu modeldir, məncə".

Onu da qeyd edək ki, ştatın digər universitetlərinin professorları innovativ ictimai xidmət modeli kimi, ASAN Xidmətin Azərbaycan modelindən öz mühazirələrində geniş istifadə edirlər.

Bütün bunlar böyük uğur, Azərbaycanın tanıdılması işinə töhfədir. Əlikram deyir:




"Azərbaycan modelinin dərsliklərə salınması digər bir tərəfdən də əhəmiyyətlidir. Axı, Harvardda inkişaf etməkdə olan, korrupsiyanın baş alıb getdiyi ölkələrin gəncləri də təhsil alır. Öz ölkələrində belə bir təcrübədən yararlanmaq onlara da xeyir gətirər".

Harvard Universitetinə qəbul olunduğu ilk gündən Əlikramı başqa bir məsələ də çox düşündürürdü. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması. Universitetin professor-müəllim heyətinin tərkibində erməni əsilli insanların olduğunu bilirdi. Onu da bilirdi ki, onun hər bir işinə təpgi göstərəcəklər.

2014-cü ilin Novruzunu səbrsizliklə gözləyirdi. Çünki digər azərbaycanlı tələbə Müşfiq Əmirovla birgə Azərbaycan gecəsi təşkil etməyi planlaşdırmışdılar. "Azərbaycan: qədim əlaqələr, gələcəyin diyarı" adlı mədəniyyət tədbirinə gələnlər Azərbaycanın qədim tarixi, müasir inkişafı, klassik və modern incəsənəti və s. tanış ola bildilər. Göstərilən videoçarx, paylanan bukletlər, milli atributlarımız olan suvenerlər bu diyar haqqında çoxlarında xoş təəssürat yaratmışdı. Türkiyənin Bostondakı konsulu Ömür Budak və Vaşinqton səfirliyinin nümayəndələrinin də iştirak etdiyi bu tədbirdə ümummilli lider Heydər Əliyevin ABŞ-la əməkdaşlığa böyük önəm verməsi, bu siyasətin hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, Avropa Oyunları və təbii ki, Qarabağ müharibəsi, Xocalı faciəsi barədə ətraflı bəhs olundu və bu, ermənilərin etirazına səbəb olsa belə universitet həyatında əks-səda yarada bildi. Tədbir barədə universitetin qəzetində məqalə çap olundu.

Əlikram əlavə edərək deyir: "Bu tədbirdə son illərdə dövlətimizin apardığı iqtisadi və siyasi sahələrdəki inkişafı və lider dövlətlər sırasına çıxması, ölkədə aparılan geniş quruculuq və abadlıq işləri barədə də ətraflı məlumat verilmişdi. Eyni zamanda bizim təşəbbüsümüz və dəvətimizlə bu ilin sentyabr ayında Harvard Universitetinin nümayəndələrinin ASAN xidmət və respublikanın ali təhsil müəssisələrinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün Azərbaycana səfəri nəzərdə tutulur".

Əlikramla, onun həyat yolu ilə tanışlıqdan belə bir qənaətə gəlirsən: Bütün bunları yalnız kiçik ürəyində böyük Azərbaycan gəzdirən Vətən övladı edə bilər: "Mən dövlət xətti ilə təhsil alıb Azərbaycana qayıtmışam. Səmimi deyirəm, şəxsi vəsaitim hesabına oxumuş olsaydım da, Vətənə dönərdim. Ən böyük arzum Vətənimə, xalqıma layiqincə xidmət göstərməkdir. İstərdim ki, qürur duyduğum Azərbaycanın öyündüyü, fəxr etdiyi övladlarının sırasında olum".

"Niyyətin hara, mənzilin də ora"- deyib müdriklərimiz. Mənim gənc həmsöhbətim Əlikramı ictimai həyatda böyük işlər gözləyir; müasir biliklər, Vətənə məhəbbət və işgüzarlıq onu Olimpin zirvəsinə doğru qanadlandırır. Uğurlar olsun!...

**Zümrüd ABDULLAYEVA,**
**"Respublika".**